# BEYNƏLXALQ TİCARƏTİN MALİYYƏLƏŞMƏSİ, SƏNƏDLƏR VƏ QAYDALAR

BAKI 2017

Ekspert - Ilkin Qarayev

# Beynəlxalq ticarət əməliyyatları



Beynəlxalq Ticarət ilə məşğul olan iş adamları öz fəaliyyətləri zamanı hansı risklərlə qarşılaşa biləcəyini yaxşı anlamalıdır ki, ticarətin maliyyələşdirilməsi zamanı doğru qərar qəbul edə bilsin.

# Beynəlxalq ticarət əməliyyatları



Şirkətlərin fəaliyyətinin biznes siklini şərti olaraq altı mərhələyə bölmək olar: nağd vəsait – xammal və materialların əldə edilməsi – istehsal – tələbat (satış) – pul vəsaitlərinin yığımı – nağd vəsait.

# Beynəlxalq ticarət əməliyyatları





# Beynəlxalq ticarətin çətinlikləri



## Qanunlar, gömrük və ənənələr

İdxalçı və ixracatçı beynəlxalq ticarətin iştirakçıları olduqda, onlar müxtəlif ölkələrin qanunları, gömrük prosedurаları və hətta dil problemləri ilə qarşılaşırlar.

# Beynəlxalq ticarətin çətinlikləri



**Valyuta riskləri**

Beynəlxalq ticarətdə satıcı çox vaxt malını xarici valyutaya satmalı olur. Əgər müqavilədə göstərilmiş valyutanın qiyməti malın satıldığı və ödənişin alındığı müddətdə aşağı düşərsə, bu zaman satıcı ticarət əməliyyatından əldə edəcəyi gəlirin bir hissəsini və ya hamısını itirə bilər.

# Beynəlxalq ticarətin çətinlikləri



**Ölkələr arasında məsafə və ləngimələr**

Beynəlxalq ticarətdə bağlanan müqavilələr çox vaxt yerli müqavilələrə nisbətən daha böyük məbləğdə bağlanır. Alıcının və satıcının ölkələri arasında olan məsafələrə görə, malın göndərilməsi üçün daha çox zaman tələb olunur ki, bu da malın korlanması və ya xarab olması riskini, beləlklə də malın pulunun ödənilməməsi riskini artırır.

# Beynəlxalq ticarətin çətinlikləri



**Dövlət qanunları**

İdxalçı və ixracatçı işlədikləri dövlətlərin qanunlarına görə müxtəlif problemlərlə qarşılaşa bilərlər:

- Mərkəzi bankların valyuta nəzarəti qaydaları;
- İdxal kvotaları;
- Ticarət embarqoları, qara siyahılar;
- İdxal gömrük rüsumları və s.

# İncoterms



«İncoterms» abbreviaturası ingilis dilindən tərcümədə «Beynəlxalq ticarət şərtləri» deməkdir.

«İnkoterms» ixracatçının malların göndərilməsi zamanı nəqliyyat və sığorta öhdəliklərini tənzimləyən beynəlxalq səviyyədə razılaşdırılmış ticarət şərtləridir.

# İncoterms



1936-cı ildə Beynəlxalq Ticarət Palatası beynəlxalq ticarətdə praktiki üsulları standartlaşdıran tövsiyələri qəbul etmişdir. 2010-ci ildə «İnkoterms»ə son əlavə və düzəlişlər edilmişdir. Hazırda «İnkoterms» şərtləri 4 qrupa və 11 ticarət bəndinə bölünür.

# İncoterms



**E Qrupu**

**Göndərilmə**

EXW- istehsal sahəsindən (…yeri göstərilməklə)

# İncoterms



**F Qrupu**

**Əsas daşınma xərcləri ödənilməmişdir**

FCA – Malın daşıyıcıya təslim edilməsi (… yeri göstərilməklə)

FAS – Malın limanda təhvil verilməsi

(…göndərilmə limanı göstərilməklə)

FOB - Malın gəminin göyərtəsində təhvil verilməsi (… göndərilmə limanı göstərilməklə)

# İncoterms



**C Qrupu**

**Əsas daşınma xərcləri ödənilmişdir**

CFR – Daşınma xərci (…çatdırılma limanı göstərilməklə)

CIF - Daşınma və sığorta xərcləri

(… çatdırılma limanı göstərilməklə)

CPT – Daşınma xərci ödənilmişdir

(… çatdırılma yeri göstərilməklə)

CIP - Daşınma xərci və sığorta ödənilmişdir (… çatdırılma yeri göstərilməklə)

# İncoterms



**D Qrupu - Çatdırma**

DAT – Terminala çatdırma (… adı və yeri göstərilməklə)

DAP – Məntəqəyə çatdırma

(… çatdırılma məntəqəsi göstərilməklə)

DDP - Rüsumlar ödənilərək çatdırılma

(… çatdırılma yeri göstərilməklə)

# Beynəlxalq ticarətdə istifadə olunan sənədlər



Beynəlxalq ticarətdə istifadə olunan sənədlər çox müxtəlif, həm də mürəkkəbdir. Beynəlxalq ticarətlə işləyən iş adamı onları yaxşı tanımalı və bilməlidir.

# Beynəlxalq ticarətdə istifadə olunan sənədlər



**Beynəlxalq ticarətdə istifadə olunan sənədləri üç qrupda təsnifləşdirmək mümkündür:**

- **Nəqliyyat sənədləri;**
- **Sığorta sənədləri;**
- **Ticarət və gömrük sənədləri.**

# Nəqliyyat sənədləri



- Nəqliyyat qaiməsi
- Hava yol qaiməsi
- Konosament
- CMR
- Dəmiryol qaiməsi və s.

# Sığorta sənədləri



- Sığorta sertifikatı
- Sığorta polisi

# Ticarət və gömrük sənədləri



Ticarət hesab fakturası

Mənşə sertifikatı

Kəmiyyət və keyfiyyət sertifikatı və s.

# Beynəlxalq ticarətdə ödəmə üsulları



Beynəlxalq ticarətdə əsas ödəmə üsullarını aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Açıq hesab
2. Təmiz və ya sənədli inkasso
   - ödəmə qarşılığında sənədlər
   - möhlətli ödəniş

# Beynəlxalq ticarətdə ödəmə üsulları



Beynəlxalq ticarətdə əsas ödəmə üsulları:

3.Sənədli akkeditiv

ödəmə qarşılığında sənədlər

möhlətli ödəniş

4.Bank zəmanətləri və «Stand by» tipli akkreditivlər

5.Qabaqcadan ödənişlər

# Akkreditiv



Sənədli akkreditiv onun benefisiarına (akkreditiv alana, yəni mal satana) akkreditivdə göstərilən şərtlərin yerinə yetirilməsindən sonra ödəniş haqqında bank zəmanətidir.

# Akkreditiv



Sənədli akkreditiv həm ödənişin sənədləri təqdim etdikdən dərhal sonra aparılmasına, həm də gələcəkdə müəyyən bir tarixdə (möhlətli ödənişlə) aparılmasına imkan verir.

Sənədli akkreditiv, alqı-satqı haqqında müqavilələrdən və ya əsaslandıqları digər sənədlərdən asılı olmayan ayrıca bir bank əməliyyatıdır.

# Akkreditiivin sxemi



# Akkreditiv



Öz mənşəyinə görə akkreditivlər bir neçə növə bölünür, və bunlar Beynəlxalq Ticarət Palatasının təsdiq etdiyi «Sənədli akkreditivlərin tətbiqi və ümumi qaydaları» (UCP-600) ilə tənzimlənir.

# Akkreditiv



**Geri çağırıla bilməyən sənədli akkreditiv – Müddəti bitənə qədər mal alan tərəfindən geri çağırıla bilməyən akkreditivdir. Yeni UCP-600 qaydalarına əsasən bütün akkreditivlər geri çağrıla bilməyən hesab edilirlər.**

# Akkreditiv



**Təsdiq edilmiş sənədli akkreditiv;**

**Akkreditivi açan bankın zəmanətinə əlavə olaraq, satıcının bankının və ya üçüncü tərəfin öz təsdiqini verməsi halında akreditiv təsdiq edilmiş akkreditiv adlanır.**

# Akkreditiv



Təsdiq edilməmiş sənədli akkreditiv;

Bu halda akkreditivin ödənilməsinə görə yalnız akkreditivi açan bank məsuliyyət daşıyır.

# Akkreditiv



**Revolver (bölünə bilən) sənədli akkreditiv;**

**Bu akkreditiv bərabər hissələrə bölünərək, əlavə düzəliş olmadan bir neçə dəfə təkrarlana bilər.**

# Akkreditiv



**Qarşılıqlı sənədli akkreditiv;**

**Alınmış hər hansı bir akkreditiv əsasında müştəri tərəfindən açılan digər akkreditivə qarşılıqlı akkreditiv deyilir.**

# Akkreditiv



**Transferabel (üçüncü şəxsə ötürülə bilən);**

**Bu növ akkreditiv, Satıcıya qəbul etdiyi akkreditivin bir və ya bir neçə hissəsini digər satıcılara yönəltmək imkanı verir.**

# Akkreditiv



**«Stand by» tipli akkreditiv**

**Bu tipli akkreditiv ya açılmış digər bir akkreditivi sığortalamaq üçün, ya da «açıq hesabla» ödənişin sığortalanması üçün istifadə edilir. Bu akkreditivi alan tərəf, ödənişi yalnız qarşı tərəfin öhdəliklərini yerinə yetirmədiyi təqdirdə tələb edə bilər.**

# Akkreditiv



Qırmızı şərtli akkreditiv;

Satıcıya mal göndərmək üçün qəbul etdiyi akkreditivin bir hissəsindən qabaqcadan istifadə etmək hüququ verir.

# Akkreditiv



Akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) vəsait alana vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi öhdəsinə götürür. (Mülki Məcəllə, maddə 977.1)

# Akkreditiv



Akkreditiv üzrə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq edilən işgüzar dövriyyə adətləri ilə tənzimlənir. (Mülki Məcəllə, maddə 977.2)

# Akkreditiv



Akkreditivin icrası üçün vəsait alan icraçı banka akkreditivin bütün şərtlərinin yerinə yetirildiyini təsdiqləyən sənədləri təqdim edir. Bu şərtlərdən, heç olmasa, biri pozulduqda akkreditiv icra edilmir. İcraçı bank həmin sənədlərin yalnız formal baxımdan qaydada olmasını yoxlamalıdır. (Mülki Məcəllə, maddə 980.1)

# Akkreditiv



Əgər icraçı bankın qəbul etdiyi sənədləri aldıqdan sonra emitent bank onları zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən hesab edərsə, onların qəbulundan imtina edə bilər və akkreditivin şərtləri pozulmaqla vəsait alana ödənilmiş məbləği icraçı bankdan tələb edə bilər, ödənilməmiş akkreditiv üzrə isə ödənilmiş məbləğlərin əvəzini ödəməkdən imtina edə bilər. (Mülki Məcəllə, maddə 981.2)

(Mülki Məcəllə, maddə 980.1)

# Akkreditivin üstünlükləri

| Satıcı üçün | Alıcı üçün |
| --- | --- |
| ▫Sənədlər qaydasında olarsa, ödəniş demək olar ki, təmin edilmişdir<br>▫Əlavə zəmanət almaq imkanı (təsdiqlənmiş akkreditiv)<br>▫Akkreditivin növlərindən istifadə imkanı | ▫Mallar göndərilməmiş ödəmənin olmaması<br>▫Sənədlərin düzgün olmasına bank tərəfindən nəzarət<br>▫Qabaqcadan ödəmədən daha sərfəlidir |

# Akkreditivin çatışmazlıqları

## Satıcı üçün

- Sənədlərdə çatışmazlıq olarsa, təminat qüvvəsini itirir
- Qabaqcadan ödəmə daha sərfəlidir

## Alıcı üçün

- Malların keyfiyyəti və kəmiyyətinə nəzarət etmir
- Banklar yalnız sənədlərə əsaslanır
- Bahalı əməliyyatdır
- Vəsaitləri dondurulur

# Bank zəmanətlərinin mahiyyəti



- **Zəmanət** – bir şəxs tərəfindən digər şəxsin kreditoru qarşısında bu şəxsin öhdəlikləri üzrə məsuliyyətlərinin öz üzərinə götürülməsi.
- Mahiyyətcə iki zəmanət anlayışı var:
  - Zaminlik
  - Qarantiya.

# Bank zəmanətlərinin mahiyyəti



- **Qarantiyanın xüsusiyyətləri:**
  - Qarantiyaya əsasən qarant digər şəxsin (prinsipalın) xahişi ilə prinsipalın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir. (Mülki Məcəllə, maddə 478)
  - Qarantiyanı yalnız bank, bank olmayan kredit təşkilatı yaxud sığorta şirkəti verə bilər.
  - Qarantiya bir ölkə hüdudlarından kənarda da istifadə olunur və beynəlxalq ticarət əməliyyatlarında istifadə olunur.

# Bank zəmanətlərinin mahiyyəti



- **Zaminliyin xüsusiyyətləri:**
  - Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür. (Mülki Məcəllə, maddə 470)
  - Zaminlik müqaviləsində zamin rolunda hər hansı fiziki yaxud hüquqi şəxs çıxış edə bilər.
  - Zaminlik müqaviləsində kreditorun tələblərinə qarşı zaminin etiraz hüququ vardır.
  - Zaminlik bir ölkə hüdudları daxilində işləyir və beynəlxalq ticarət əməliyyatlarında istifadə olunmur.

# Bank zəmanətlərinin mahiyyəti



- Bank zəmanətinin (qarantiyanın) iştirakçıları:



# Bank zəmanətlərinin mahiyyəti



- Bank zəmanətinin istifadəsi nə zaman əlverişlidir:
  - Satıcı alıcının ödəmə qabiliyyətini qiymətləndirməyə çətinlik çəkəndə;
  - Alıcı təchizatçının öhdəlikləri yerinə yetirmək hazırlığını, habelə onun peşə və maliyyə qabiliyyətlərini qiymətləndirməyə çətinlik çəkəndə;
  - və s.

# Bank zəmanətlərinin mahiyyəti



- Qarantiyanın likvidlik üstünlüyü – adətən pul vəsaiti depoziti tələb olunmur (xüsusi hallarda pul vəsaitlərinin bloklaşdırılması da ola bilər).
- Qarantiya yaxud akkreditiv?
- Qarantiya və akkreditiv oxşar olmaqları ilə bərabər, funksiyaları üzrə fərqlənirlər:
  - Qarantiyanın əsas əlaməti təminat funksiyasıdır,
  - Akkreditivin əsas əlaməti ödəniş funksiyasıdır.

# Bank zəmanətlərinin formaları



- **Qarantiyalar aşağıdakı xüsusiyyətlərə görə formalara bölünür:**
  - Qarantiyanın geri götürülməzliyi
    - Əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, o, qarant tərəfindən geri götürülə bilməz. (Mülki Məcəllə, maddə 481)
  - Qarantiya üzrə hüquqların başqasına verilə bilməməsi
    - Əgər qarantiyada ayrı qayda nəzərdə tutulmayıbsa, qarantiya üzrə benefisiara mənsub olan, qaranta qarşı tələb irəli sürmək hüququ başqa şəxsə verilə bilməz. (Mülki Məcəllə, maddə 482)

# Bank zəmanətlərinin formaları



- **Qarantiyalar aşağıdakı xüsusiyyətlərə görə formalara bölünür:**
  - Qarantiyanın qüvvəyə minməsi
    - Əgər qarantiyada ayrı müddət nəzərdə tutulmayıbsa, qarantiya verildiyi gündən qüvvəyə minir. (Mülki Məcəllə, maddə 483)
  - Qarantın prinsipala qarşı reqres tələbləri
    - Qarantın qarantiya üzrə benefisiara ödənilmiş məbləğlərin əvəzinin ödənilməsini prinsipaldan reqres qaydasında tələb etmək hüququ tərəflər arasında bağlanılmış razılaşma ilə müəyyənləşdirilir. (Mülki Məcəllə, maddə 489)

# Bank zəmanətlərinin növləri



- **Bank zəmanətlərinin əsas növləri:**
  - Təklif qarantiyası (konkurs yaxud tender qarantiyası);
  - İcra qarantiyası (yerinə yetirmə qarantiyası);
  - Avans qarantiyası.
- **Bank zəmanətlərinin digər növləri:**
  - Konosamentin qarantiyası;
  - Gömrük qarantiyası;
  - Veksel üzrə zəmanət (aval);

# Bank zəmanətlərinin növləri



- **Bank zəmanətlərinin digər növləri:**
  - Kreditin təminat qarantiyası;
  - Müqavilə qarantiyası;
  - Məhkəmə qarantiyası;
  - Əmlakın həbsi qarantiyası (iddianın təmin olunması qarantiyası);
  - Ödəmə qarantiyası.

# Suallarınız ???



# DİQQƏTİNİZƏ GÖRƏ ÇOX SAĞ OLUN!